# Sağlamlıq, əməyin təhlükəsizliyi, ətraf mühitin mühafizəsi və keyfiyyətə nəzarət üzrə hədəflərimiz

**Bizim öhdəliyimiz**

"Azərbaycan Hava Yolları" QSC normativ hüquqi sənədlərin tələblərinə əsasən və iqtisadi və sosial tərəqqiyə uyğun olaraq iş prosesində bədbəxt hadisələrin qarşısını almaq və ətraf mühitə təsiri azaltmaq üçün təhlükəsiz iş mühiti təmin etmək öhdəliyini daşıyır.

Bu hədəflər müvəqqəti, daimi, ofisdə və ya iş sahəsində işləməsindən asılı olmayaraq, bütün işçilərə, həmçinin əməkdaşlıq münasibətlərində olan xidmət təminatçılarına və şirkət nümayəndələrinə eyni dərəcədə tətbiq olunur.

**Hədəflərimiz**

• Əməkdaşlarımızın sağlamlığını və təhlükəsizliyini hər zaman qorumaq və yaxşılaşdırmağa çalışmaq;
• Keyfiyyətə nəzarət üzrə uyğunsuzluqları və SƏTƏMM ilə bağlı bədbəxt hadisələri aradan qaldırmaq;
• Ayrı-ayrı texnoloji əməliyyatların, texnoloji avadanlıqların və alətlərin keyfiyyəti üzrə nümunəvi təftiş nəzarətinin həyata keçirilməsini təşkil etmək;
• Bütün tərəflərlə açıq şəkildə ünsiyyət qurmaq və SƏTƏMM və KN hədəflərimizin, standartlarımızın, proqramlarımızın başa düşülməsini təmin etmək;
• SƏTƏMM və KN üzrə müsbət nəticə göstərən əməkdaşları mükafatlandırmaq;
• Cari və yeni layihələri həyata keçirərkən ətraf mühitə dəyən ziyanı minimuma endirmək;
• Nəqliyyat vasitələrinin ətraf mühitə göstərdiyi təsiri minimum səviyyəyə endirmək;
• İşçiləri sağlamlıq, əməyin təhlükəsizliyi və ətraf mühitin mühafizəsi barədə mütəmadi olaraq məlumatlandırmaq və bununla bağlı məsləhətləşmələrin aparılmasına təşviq etmək;
• Yerli qanunvericiliyin tələbləri ilə yanaşı, ətraf mühitin mühafizəsi üzrə qurumun riayət etməli olduğu digər qabaqcıl təcrübələrin beynəlxalq aviasiya qaydalarına uyğunluğunu təmin etmək;
• Hər hansı bir fövqəladə vəziyyət, böhran və işdə fasilələrin aradan qaldırılması üçün plan tərtib etmək, cavab tədbirləri həyata keçirmək və fəaliyyəti bərpa etmək;
• Bütün işçilərin funksiyalarını və öhdəliklərini dəqiq müəyyənləşdirmək, onları müvafiq təlimlərlə təmin etmək və karyera yüksəlişi üçün imkanlar yaratmaq;
• İşçilərin sağlamlığını və təhlükəsizliyini daim yaxşılaşdırmaq və tətbiq olunan qanunvericiliyə riayət olunmasını təmin etmək üçün görülən işlərin müvafiq risk qiymətləndirilməsini həyata keçirmək;
• Bu tələbləri "Azərbaycan Hava Yolları" QSC ərazisində fəaliyyət göstərən podratçı və subpodratçı təşkilatlara və bizimlə çalışan dövlət orqanlarının nümayəndələrinə bildirmək və onların dəstəyini almaq;
• SƏTƏMM və KN üzrə reallaşdırılması mümkün olan məqsəd və standartları müəyyən etmək və onlara riayət olunmasına nail olmaq;
• Bu hədəfləri şirkətin bütün işçiləri arasında təbliğ etmək.

**Daimi təkmilləşdirmə...**

Bu hədəflər hər il üst rəhbərlik tərəfindən nəzərdən keçirilməli və lazım olduğu təqdirdə dəyişən iş şəraiti, yeni texnologiyalar, dövlət siyasəti və qanunvericilik nəzərə alınmaqla düzəlişlər edilməlidir.

AZ1044, Baku, Azerbaijan Tel: +994 12 497 26 00, 497 26 01 Fax: +994 12 593 52 37 Email: airline@azal.az www.azal.az